Namiq Abbaslı
Auditorlar Palatası Şurası yanında BAS və AFMT üzrə Komitənin sədri,
“ANR Audit” MMC-nin direktor-auditoru

# AUDİT SÜBUTU

AUDİT SÜBUTU;

AUDİT SÜBUTU – SEÇİLMİŞ MADDƏLƏR ÜZRƏ XÜSUSİ MÜLAHİZƏLƏR;

KƏNAR MƏNBƏDƏN TƏSDİQLƏMƏLƏR

# BAS 500 «AUDİT SÜBUTU»

- Audit sübutu – Yoxlama prosesində əldə edilən və Auditor rəyinin əsaslandığı məlumatlardır.

# BAS 500 «AUDİT SÜBUTU»

- **Əldə edilmə mənbəyinə görə audit sübutları**:
- Daxili – sifarişçi müəssisədən alınan məlumatlar
- Kənar – maraqlı olmayan 3-cü şəxslər və qürumlardan alınan məlumatlar
- Qarışıq – kənar mənbənin təsdiqlədiyi müəssisədən əldə edilən məlumatlar
- Auditorun özünün məlumatları

# BAS 500 «AUDİT SÜBUTU»

- **Yoxlanılan maliyyə hesabatlarına nəzərən sübutların növləri:**
- Birbaşa – maliyyə hesabatlarının təsdiqlənməsinə aid sübutlar (ilkin sənədlər, uçot registrləri)
- Dolayı – birbaşa maliyyə hesabatlarına aid olmayan məlumatlar (məsələn, daxili nəzarət sisteminin etibarlılığına dair məlumatlar)

# BAS 500 «AUDİT SÜBUTU»

- **Təqdim edilmə üsuluna görə sübutlar:**
- Sənədli (yazılı)
- Şifahi

Sənədli və ya şifahi formada alınmasından asılı olmayaraq bütün audit sübutları auditorun iş sənədlərində əks etdirilməlidir.

# BAS 500 «AUDİT SÜBUTU»

- **Audit sübutlarının əldə edilmə mənbələri:**
- Yoxlanılan dövrün maliyyə (mühasibat ) hesabatları
- Mühasibat uçotu registrləri, uçot proqram təminatı, jurnallar, kitablar
- Operativ uçot məlumatları
- Daxili idarəetmə hesabatları (cari və əvvəlki dövrlər)
- İnventarizasiya sənədləri
- Əvvəlki audit yoxlamasının iş sənədləri
- Səhmdarların (təsisçilərin) iclas protokolları
- Daxili auditorun sənədləri
- Sifarişçinin rəhbərliyinin əmr və sərəncamları
- Rəhbərliklə şifahi söhbətlərdən əldə olunan məlumatlar
- Təsis sənədləri

# BAS 500 «AUDİT SÜBUTU»

- **Audit sübutlarının əldə edilmə mənbələri:**
- Müqavilələr, sazişlər
- Sorğu və anket nəticələri
- Maraqlı olmayan 3-cü şəxslərə verilmiş sorğuların cavabları
- Müəssisənin bir neçə illik maliyyə-təsərrüfat göstəricilərinə dair analitik məlumatlar
- Qeyri-mühasibat maliyyə hesabatları (Rəhbərliyin hesabatları, iqtisadi təhlillər)
- Eyni sahədə fəaliyyət göstərən digər müəssisələrlə göstəricilərin müqayisəli təhlili
- Kommersiya iqtisadi yönümlü saytlar, qəzet və jurnallar (ödəniş qabiliyyətsizliyi əlamətlərinin olması)
- Ümumi iqtisadi vəziyyətlə bağlı təhlillər
- Arbitraj və məhkəmə işləri, iddialar, keyfiyyətlə bağlı şikayətlər (reklamasiyalar)
- Statistik məlumatlar
- Müəssisənin hüquqşünaslarından alınan məlumatlar;
- ekspertiza və sınaq nəticələri.

# BAS 500 «AUDİT SÜBUTU»

Audit sübutlarının xüsusiyyətləri

Yetərlilik – kəmiyyət ölçüsü

Münasiblik – keyfiyyət ölçüsü

# BAS 500 «AUDİT SÜBUTU»

- Sübutlara dair auditorun mühakimələrinə təsir edən amillər:
- - riskin xarakteri və həcminə dair auditor qiymətləndirməsi;
- - yoxlanılan maddələrin əhəmiyyətliliyi;
- - auditorun təcrübəsi;
- - auditor prosedurlarının nəticələri;
- - alınan məlumatların mənbəyi və etibarlılığı.

# BAS 500 «AUDİT SÜBUTU»

- Audit sübutlarının yetərliliyinə təsir edən amillər:
- 1) maliyyə hesabatlarında təhriflər riski (risk nə qədər yüksək olarsa, daha çox sübut tələb olunur);
- 2) audit sübutlarının keyfiyyəti (sübutların keyfiyyəti nə qədər yüksək olarsa, daha az sübut tələb olunur).

# BAS 500 «AUDİT SÜBUTU»

- Audit sübutlarının münasibliyinə təsir edən amillər:
- 1) məlumatın mənbəyi (kənar, daxili);
- 2) məlumatın təqdim edilmə forması (sənədli, vizual, şifahi );
- 3) məlumatın alınma şəraiti.

# BAS 500 «AUDİT SÜBUTU»

- Audit sübutlarının keyfiyyətinin qiymətləndirilməsi qaydaları:
- 1) audit olunan subyektdən asılı olmayan kənar mənbələrdən alınan sübutlar daha etibarlı sayılır;
- 2) əgər subyektin daxili nəzarət sistemi səmərəli işləyirsə, daxili mənbələrdən alınan sübutlar daha etibarlı sayılır;
- 3) auditorun bilavasitə müşahidə ilə əldə etdiyi sübutlar, dolayı yolla və ya məntiqi mühakimələrlə topladığı sübutlardan daha etibarlı sayılır;
- 4) sənədli formada olan sübutlar daha etibarlı sayılır;
- 5) orijinal sənədlərlə təsdiq olunan sübutlar, surət şəklində təqdim olunan sübutlardan daha etibarlı sayılır.

# BAS 500 «AUDİT SÜBUTU»

- Müxtəlif mənbələrdən məlumatlarda uyğunsuzluqlar:
- Müxtəlif mənbələrdən alınan məlumatlar arasında uyğunsuzluqlar həmin audit sübutunun etibarlılığını şübhə altına alır. Məsələn, eyni məsələ ilə bağlı müəssisənin məlumatı ilə kənar mənbənin məlumatının üst-üstə düşməməsi və ya rəhbərliyə, daxili auditə və digər bölmələrə verilmiş sorğulara onlardan fəqrli cavabların alınması. Bu hallarda auditor öz peşəkar mühakiməsinə əsasən əlavə alternativ prosedurlar həyata keçirməli və bu prosedurları özünün iş sənədlərində əks etdirməlidir.

# BAS 500 «AUDİT SÜBUTU

- Auditor audit sübutlarının toplanmasına sərf olunan vaxt və çəkilən xərclərlə alınan məlumatın faydalılığının nisbətini nəzərə almalıdır. Az əhəmiyyətli sübutlar üçün çox vaxt sərfi və çox xərclərin çəkilməsi məqsədəuyğun deyildir. Eyni zamanda mürəkkəbliyi, çox vaxt sərfini və xərclərin çoxluğunu əsas gətirərək yetərli və münasib audit sübutunu əldə etmək üçün lazımi audit prosedurlarının yerinə yetirilməməsi də yolverilməzdir. Alternativ yol yoxdursa auditor bunu həyata keçirməlidir. Əgər istənilən halda yüksək əhəmiyyətli məsələlər üzrə yetərli və münasib sübutlar əldə edə bilmirsə auditor maliyyə hesabatlarına dair rəy bildirməkdən imtina etməlidir.

# BAS 500 «AUDİT SÜBUTU»

- Audit sübutları aşağıdakıların həyata keçirilməsi ilə əldə edilir:
- - risklərin qiymətləndirilməsi prosedurları;
- - subyektin nəzarət vasitələrinin test edilməsi;
- - əsaslı yoxlama prosedurları.

# BAS 500 «AUDİT SÜBUTU»

- Audit sübutlarının toplanması prosedurları:
- 1. Mühasibat qeydlərinin və sənədlərinin yoxlanması – qeydlərin və istənilən formada olan sənədlərin yoxlanması;
- 2. Maddi aktivlərin yoxlanması – maddi aktivlərin fiziki mövcudluğunun yoxlanması (inventarizasiya);

# BAS 500 «AUDİT SÜBUTU»

- 3. Müşahidə – digər şəxslərin yerinə yetirdiyi proses və prosedurların müşahidə edilərək öyrənilməsi;
- 4. Sorğu – daxili və kənar məlumatlı şəxslərdən maliyyə və qeyri-maliyyə məlumatlarının sorğu yolu ilə əldə edilməsi;
- 5. Kənar təsdiqləmə – birbaşa üçüncü şəxslərdən məlumatların alınması üçün müxtəlif sorğu prosedurları;

# BAS 500 «AUDİT SÜBUTU»

- 6. Yenidən hesablama – ilkin sənədlərdə və mühasibat qeydlərindəki riyazi göstəricilərin yenidən hesablanaraq yoxlanması;
- 7. Təkrar yoxlama – subyektin daxili nəzarət sistemi tərəfindən aparılmış prosedur və yoxlamaların auditor tərəfindən müstəqil olaraq yenidən həyata keçirilməsi;

# BAS 500 «AUDİT SÜBUTU»

- 8. Analitik prosedurlar – maliyyə və qeyri-maliyyə məlumatları arasında ehtimal edilən nisbətlərin öyrənilməsi yolu ilə maliyyə məlumatlarının qiymətləndirilməsidir. Bu prosedurlar həmçinin digər mühüm məlumatlarla ziddiyyət təşkil edən və ya ehtimal olunan nəticələrdən əhəmiyyətli fərqlənən əlaqələrin və dəyişikliklərin öyrənilməsini əhatə edir.

# BAS 500 «AUDİT SÜBUTU»

- Yetərli və münasib audit sübutlarının əldə edilməsi mümkün olmadıqda auditor ya şərti auditor rəyi verməlidir, ya da rəy verməkdən imtina etməlidir.

# AUDİT SÜBUTLARININ ƏLDƏ EDİLMƏSİ İLƏ BAĞLI STANDARTLAR:

- BAS 501 «Audit sübutu – seçilmiş maddələr üzrə xüsusi mülahizələr»
- ISA 501 «Audit Evidence – Specific Considerations for Selected Items»

- MCA 505 «Kənar mənbədən təsdiqləmələr»
- ISA 505 «External Confirmations»

# AUDİT SÜBUTLARININ ƏLDƏ EDİLMƏSİ İLƏ BAĞLI STANDARTLAR:

- BAS 510 «İlk audit – ilkin qalıqlar»
- ISA 510 «Initial Audit Engagements – Opening Balances»

- BAS 520 «Analitik prosedurlar»
- ISA 520 «Analytical Procedures»

# AUDİT SÜBUTLARININ ƏLDƏ EDİLMƏSİ İLƏ BAĞLI STANDARTLAR:

- BAS 530 «Audit seçməsi»
- ISA 530 «Audit Sampling»
- BAS 540 «Uçot qiymətləndirmələrinin, o cümlədən ədalətli dəyər qqiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi»
- ISA 540 «Auditing Accounting Estimates, Including Fair Value Accounting Estimates, and Related Disclosures»

# AUDİT SÜBUTLARININ ƏLDƏ EDİLMƏSİ İLƏ BAĞLI STANDARTLAR:

- BAS 550 «Əlaqəli tərəflər»
- ISA 550 «Related Parties»

- BAS 560 «Sonrakı hadisələr»
- ISA 560 «Subsequent Events»

# AUDİT SÜBUTLARININ ƏLDƏ EDİLMƏSİ İLƏ BAĞLI STANDARTLAR:

- BAS 570 «Fəaliyyətinin fasiləsizliyi»
- ISA 570 «Going Concern»

- BAS 580 «Yazılı təqdimatlar»
- ISA 580 «Written Representations»

# BAS 501 «AUDİT SÜBUTU – SEÇİLMİŞ MADDƏLƏR ÜZRƏ XÜSUSİ MÜLAHİZƏLƏR»

- Auditorun məqsədi aşağıdakılrla bağlı yetərli münasib audit sübutları əldə etməkdir:
- 1) Mal-material ehtiyatlarının mövcudluğu və vəziyyəti;
- 2) Məhkəmə işləri və iddialar üzrə təqdimatın tamlığı;
- 3) Seqmentlər üzrə məlumatın maliyyə hesabatının tətbiq olunan prinsiplərinə uyğun hazırlanması və açıqlanması.

# BAS 501 «AUDİT SÜBUTU – SEÇİLMİŞ MADDƏLƏR ÜZRƏ XÜSUSİ MÜLAHİZƏLƏR»

- **Mal-material ehtiyatları**
- Bu bölmə maliyyə hesabatları üçün əhəmiyyətlidirsə, auditor belə ehtiyatların mövcudluğu və vəziyyətinə dair yetərli münasib audit sübutu əldə etməlidir:
- Mal-materialların inventarizasiyasında iştirak etməklə
- İnventarizasiyada iştirak etmək mümkün deyildirsə alternativ prosedurlarla
- Mal-materiallar 3-cü tərəfin məsul mühafizəsindədirsə 3-cü tərəfdən mövcudluq və vəziyyət barədə təsdiqləmə tələb edilir.
- İnventarizasiya hesabat tarixindən fərqli tarixdə aparılmışdırsa aralıq müddətdə ehtiyatların hərəkətinin düzgün uçota alınmasını yoxlamaq üçün əlavə prosedurlar tətbiq edilir (ilkin sənədlərlə, kənar təsdiqləmə ilə və s).

# BAS 501 «AUDİT SÜBUTU – SEÇİLMİŞ MADDƏLƏR ÜZRƏ XÜSUSİ MÜLAHİZƏLƏR»

- **Məhkəmə işləri və iddialar**
- Bu maddə üzrə rəhbərliyə və müəssisənin hüquqşünaslarına sorğular göndərilir
- İdarəetməyə məsul şəxslərin iclas protokolları və kənar hüquq məsləhətçisi ilə yazışmalara baxılır
- Məhkəmə xərclərinə dair hesablar təhlil edilir
- Əhəmiyyətli hallarda kənar hüquq məsləhətçisi ilə birbaşa əlaqə yaradılır, sorğular göndərilir. Əgər qanun və qaydalar bu cür əlaqəni qadağan edərsə alternativ audit prosedurları tətbiq edilir
- Əgər rəhbərlik kənar hüquq məsləhətçisi ilə əlaqəyə icazə verməzsə, yaxud auditorun sorğularına cavab verilməzsə, alternativ prosedurlarla yetərli münasib audit sübutu əldə edilməzsə auditor fərqli auditor rəyi (şərti müsbət, mənfi bə ya imtina) verməlidir (BAS 705).

# BAS 501 «AUDİT SÜBUTU – SEÇİLMİŞ MADDƏLƏR ÜZRƏ XÜSUSİ MÜLAHİZƏLƏR»

- **Seqmentlər üzrə məlumatlar**
- Maliyyə hesabatının tətbiq olunan çərçivəsindən asılı olaraq seqment üzrə məlumatın açıqlanması müəssisədən tələb edilə və ya qadağan edilə bilər. Seqment üzrə məlumatın təqdimatı və açıqlanması ilə bağlı auditorun məsuliyyəti bütövlükdə maliyyə hesabatları ilə əlaqədardır. Müstəqil əsasda təqdim olunmuş seqment üzrə məlumat barədə rəyin bildirilməsi üçün zəruri audit prosedurlarının icrası auditordan tələb edilmir.

# BAS 501 «AUDİT SÜBUTU – SEÇİLMİŞ MADDƏLƏR ÜZRƏ XÜSUSİ MÜLAHİZƏLƏR»

- **Seqmentlər üzrə məlumatlar**
- Rəhbərlik tərəfindən istifadə olunan metodların öyrənilməsində aşağıdakı amillər mühüm əhəmiyyət kəsb edir:
- 1)Seqmentlər arasında satışların, köçürmələr və xərclərin həcmi, seqmentlərarası hərəkətlərin aradan qaldırılması
- 2)Büdcə və digər gözlənilən nəticələr ilə, məsələn satış faizləri kimi əməliyyat mənfəəti ilə müqayisələr
- 3)Seqmentlər arasında aktivlərin və xərclərin bölüşdürülməsi
- 4)Əvvəlki dövrlər ilə məlumatların ardıcıllığı və qeyri-ardıcıllığa müvafiq olaraq məlumtların açıqlanmasının yetərliliyi.
- Əlavə olaraq bax: MHBS 8 “Əməliyyat seqmentləri”

# BAS 505 «KƏNAR MƏNBƏDƏN TƏSDİQLƏMƏLƏR»



# BAS 505: STANDARTIN ÜMUMİ TƏSVİRİ



# BAS 505: ƏHATƏ DAİRƏSİ

Əhatə dairəsi: Bu standart 330 (Qiymətləndirilmiş risklərə qarşı auditorun cavab tədbirləri) və 500 saylı (Audit sübutu) BAS-ın tələblərinə müvafiq olaraq audit sübutları əldə etmək üçün kənar təsdiqləmə prosedurlarının tətbiqi məsələlərini əhatə edir. Standart 501 saylı BAS-da nəzərdən keçirilən məhkəmə prosesləri və iddialar ilə əlaqədar sorğuları tənzimləmir.

Məqsəd — yetərli və münasib audir sübutlarının əldə edilməsi.

# KƏNAR MƏNBƏDƏN TƏSDİQLƏMƏ PROSEDURLARI

500 saylı BAS-a əsasən aşağıdakılar daha etibarlı audit sübutları sayılır:

- Müstəqil kənar mənbədən alınanlar;
- Birbaşa auditor tərəfindən əldə edilənlər;
- Sənədli (kağız, elektron və başqa daşıyıcılar) sübutlar.

Auditorun kənar mənbədən əldə etdiyi sübutlar müəssisənin özü tərəfindən hazırlanmış sübutlarla müqayisədə daha etibarlı hesab edilir.

# BAS 505 «KƏNAR MƏNBƏDƏN TƏSDİQLƏMƏLƏR»

Anlayışlar

- Kənar mənbədən təsdiqləmə - kağız, elektron və ya digər daşıyıcıda üçüncü tərəfdən (təsdiqedici tərəfdən) auditorun birbaşa yazılı cavab formasında aldığı audit sübutu.
- Müsbət təsdiqləmə tələbi – təsdiqedici tərəfin birbaşa auditora tələbdə olan məlumatla razı olması və ya olmamasını və ya tələb edilən məlumatın təqdim edilməsini göstərən tələb.
- Mənfi təsdiqləmə tələbi – təsdiqedici tərəfin birbaşa auditora tələbdə təqdim edilən məlumatla yalnız razı olmadığı halda verilən cavab.
- Cavabın olmaması – təsdiqedici tərəfin müsbət təsdiqedici tələbə cavabının, yaxud tam cavabının olmaması və ya belə tələbin çatdırılmamış tələb kimi geri qaytarılması.
- Etiraz – təsdiq edilməsi tələb edilən informasiya və ya müəssisənin sənədlərində olan informasiya ilə təsdiqedici tərəfin təqdim etdiyi informasiya arasında fərqlərin olduğunu göstərən cavab.

# KƏNAR MƏNBƏDƏN TƏSDİQLƏMƏ PROSEDURLARI

**Kənar mənbədən təsdiqləmə üçün audit prosedurları**

Təsdiqlənməli və sorğu verilməli məlumatların müəyyən edilməsi

Məlumatlara hesab qalıqları, əməliyyat, saziş və müqavilə şərtləri, əlavə sazişlər və s. aid ola bilər.

Təsdiqedici tərəflərin seçilməsi

Təsdiqedici tərəflər sorğuda göstərilən məlumatlara malik olmalıdırlar.

Təsdiqləmə sorğularının tərtibi. Sorğuda cavabın göndərlməli olduğu auditor haqqında məlumatlar da göstərilir.

Təsdiqedic tərəflərə sorğuların göndərilməsi (o cümlədən, təkrar, dəqiqləşdirici (məs. ünvan) və s)

Sorğunun forma və məzmunu:
-müsbət təsdiqləmə
-mənfi təsdiqləmə
-cavabın kağız və ya elektron formada göndərliməsi
-Rəhbərliyin müraciəti ilə cavabın auditora göndərilməsinin bildirilməsi və s.

# RƏHBƏRLİYİN AUDİTOR TƏRƏFİNDƏN TƏSDİQLƏMƏ SORĞULARININ GÖNDƏRİLMƏSİNƏ İCAZƏ VERMƏMƏSİ

Rəhbərlik müvafiq sorğulara icazə vermədiyi halda auditor aşağıdakıları etməlidir:

- Rəhbərlikdən icazədən imtinanın səbəbi barədə izahat tələb etmək və imtinanın hüquqi əsası barədə audit sübutu əldə etmək (məsələn, təsdiqedici tərəflə mübahisəli vəziyyətin olması və davam etməsi);
- İmtinanın nəticələrini qiymətləndirməlidir (məsələn, əsassız imtina dələduzluqla bağlı risklərin mövcudluğuna işarə verə bilər);
- Yetərli və münasib sübutların əldə edilməsi üçün alternativ audit prosedurları həyata keçirməlidir.

# KƏNAR MƏNBƏDƏN TƏSDİQLƏMƏ PROSEDURLARININ NƏTİCƏLƏRİ

**Sorğulara cavabların doğruluğu**

- Auditor etməlidir:
- Sorğulara cavabların doğruluğuna şübhə yarandığı hallarda auditor əlavə audit sübutları əldə etməlidir
- Cavablarda qeyri-dəqiq məlumatlar olduğu hallarda riskləri, həmçinin audit prosedurlarının xarakteri, müddəti və həcminə təsirini qiymətləndirməlidir.

**Cavabın olmaması**

- Auditor etməlidir:
- Cavabın verilməlidiyi hər bir hal üçün yetərli və münasib audit sübutu əldə etmək üçün alternativ audit prosedurları həyata keçirməlidir.

# MƏNFİ TƏSDİQLƏMƏLƏR

Mənfi təsdiqləmə müsbət təsdiqləmə sorğuları ilə müqayisədə daha az etibarlı sübutları təqdim edir.

Mənfi təsdiqləmə sorğuları adətən bu hallarda tətbiq edilir:

- Əhəmiyyətli təhriflər riski aşağı qiymətləndirilmişdir və auditor daxili nəzarət sisteminin səmərəliliyi barədə kifayət qədər sübutlar əldə etmişdir;
- Obyeklərin əsas məcmusu çoxlu sayda az məbləğli və eyni xarakterli hesab qalıqları və əməliyyatlardan ibarətdir;
- Kənarlaşmanın çox az olacağı gözlənilir;
- Auditor əmindir ki, onun sorğusuna cavab verməkdən imtina edilməyəcəkdir.

# TOPLANMIŞ SÜBUTLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

| Kənar təsdiqləmə sorğularına cavabların mümkün növləri | | | |
|---|---|---|---|
| Cavabda sorğudakı məlumatın doğruluğu təsdiq edilir — kənarlaşma yoxdur | Cavada verilən məlumat qane edici deyil – məlumat tam deyil | Cavab yoxdur | Cavabda fərqli məbləğ qeyd edilir – kənarlaşma vardır |

# SON

- Mövzu ilə bağlı suallar varmı?
- Diqqətinizə görə təşəkkürlər!